

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 39 (22.950)

27 fevral 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak ediblər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzüblər.

* * *

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Rossiya-24” telekanalının müxbirinə müsahibə verib.

Müsahibə fevralın 26-da telekanalın Xocalı soyqırımı ilə əlaqədar efirə gedən reportajında yer alıb.



# Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilmişdir





Fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının iyirmi altıncı ildönümü ilə əlaqədar tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov abidə önünə gül qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad etmişdir.

Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ictimaiyyətin nümayəndələri də abidə önünə gül qoymuşlar.

Sonra Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaradan ermənilər 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə azərbaycanlılara qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə həyata keçiriblər. 1992-ci il fevralın 26-da törədilən Xocalı soyqırımı da 200 il ərzində erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları soyqırımı siyasətinin davamı, tarixdə erməni qəddarlığının daha bir təzahürüdür.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlıları, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri, keçmiş Sovet ordusunun ermənilərdən ibarət 366-cı motoatıcı alayının zirehli texnikası və hərbçiləri Xocalı şəhərinə basqın edərək dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirdilər. Həmin gün erməni millətçiləri ağbirçək analara, ağsaqqallara, südəmər körpələrə aman vermədilər. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəldilmiş ən ağır cinayətdir. Soyqırımı zamanı 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl insanlar olmaqla 613 Xocalı sakini işgəncə ilə öldürüldü. 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi, 487 nəfər əlil oldu. 8 ailə tamamilə məhv edildi, 1275 nəfər əsir götürüldü.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi nə idi? Niyə məhz Xocalı hədəf alınmışdı? Məqsəd bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan strateji əhəmiyyətli məntəqəni zəbt etmək, amansız işgəncə metodları ilə Azərbaycan xalqının gözünü qorxutmaq idisə, digər tərəfdən bu ərazilərin Azərbaycan türklərinə məxsus olduğunu sübut edən qədim abidələri tarixdən birdəfəlik silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal olunandan dərhal sonra onun ətrafında Azərbaycan türklərinə məxsus tarixi abidələr, Xocalı-Gədəbəy mədəniyyətinin qalıqları, Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə aid Xocalı kurqanları, siklop tikililər, dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı xüsusi texnika ilə dağıdılaraq məhv edilmişdir. Həmin dövrdə öz vətəndaşlarının təhlükəsizliyini və müdafiəsini təmin etməyə borclu olan hakimiyyət dairələri Xocalı soyqırımına biganə münasibət göstərmiş, onu xalqdan gizlətməyə çalışmışlar.

Xocalı soyqırımına ilk hüquqi-siyasi qiyməti ümummilli liderimiz Heydər Əliyev vermiş, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə xüsusi bəyanatla Xocalı soyqırımını törədənləri ittiham etmişdir. Ümummilli liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü il fevralın 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə hər il fevralın 26-sı “Xocalı Soyqırımı Günü” elan olunmuşdur.

Dahi şəxsiyyət deyirdi: ***“Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır”.***

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyada tanıdılması, erməni millətçiliyinin beynəlxalq miqyasda ifşası sahəsində məqsədyönlü və sistemli iş aparılır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə “Xocalıya ədalət” kampaniyası çərçivəsində çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə birgə səmərəli fəaliyyət göstərirlər. Bu istiqamətdə görülən işlərin davam etdirilməsi və “Xocalıya ədalət” kampaniyasının beynəlxalq səviyyədə genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il fevralın 13-də “Xocalıya ədalət” kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalamışdır. Xocalı həqiqətlərinin tanıdılması istiqamətində aparılan işin nəticəsidir ki, bu gün erməni faşizminin cinayətkar əməllərini beynəlxalq ictimaiyyət hiddətlə qarşılayır, dünyanın hər yerində Xocalı soyqırımına etiraz edənlərin sayı artır.




Dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, eyni zamanda, nüfuzlu qurumlar bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləmişdir. 2010-cu ildə İslam Konfransı Təşkilatına üzv ölkələrin parlamentləri “Xocalıya ədalət” kampaniyasını dəstəkləyən xüsusi qətnamə qəbul etmişdir. Qətnamədə Xocalı faciəsi “Erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı kütləvi soyqırımı” və “İnsanlığa qarşı cinayət” kimi qiymətləndirilmişdir. Dünyanın 15 aparıcı ölkəsinin parlamentləri Xocalı soyqırımını tanımışdır. Bununla yanaşı, Amerika Birləşmiş Ştatlarının 22 ştatının qanunverici orqanı da Xocalı faciəsinin soyqırımı kimi tanınması barədə qərar çıxarmışdır.

Fevralın 26-sı təkcə Azərbaycan xalqının faciə tarixi deyil. Bu, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün bərpası və erməni işğalına son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçiririk. 2016-cı ilin aprel döyüşləri, ötən il Naxçıvanda keçirilən möhtəşəm hərbi parad, ölkəmizdəki “xalq-ordu” birliyinin sarsılmaz vəhdəti düşməndə qorxu yaradıb.

Ali Baş Komandanımızın hücum əmrini gözləyən qüdrətli ordumuz şəhidlərimizin qisasını alacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir”.***

Həmin gün muxtar respublikanın rayonlarında da Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycanın Qarsdakı Baş Konsulluğu tərəfindən Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilmişdir



Fevralın 26-da Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğu Xocalı soyqırımının 26-cı ildönümü münasibətilə "Xocalıya ədalət" devizi altında anım tədbiri keçirmişdir.

Əvvəlcə Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycan Respublikasının və Türkiyə Respublikasının Dövlət himnləri səslənmişdir.

Tədbirdə çıxış edən Baş konsul Nuru Quliyev Xocalı soyqırımının XX əsrin ən dəhşətli faciələrindən biri olduğunu diqqətə çatdırmış və bildirmişdir ki, 1992-ci il fevralın 26-da ermənilər Xocalı şəhərində misligörünməmiş vəhşiliklər törətmiş, dinc sakinləri amansız işgəncələrlə qətlə yetirmişlər. Baş konsul Xocalı faciəsinə yalnız ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra hüquqi-siyasi qiymət verildiyini bildirmiş, soyqırımı aktının dünyada tanıdılması istiqamətində görülən işlərdən danışmışdır.

Qars Bələdiyyə sədri Murtaza Karaçanta və Qars vilayətinin digər rəsmi şəxsləri, eləcə də ictimaiyyətin nümayəndələri tədbirdə iştirak etmişlər.

Xocalı soyqırımının 26-cı ildönümü münasibətilə İqdır şəhərində də anım tədbiri keçirilmişdir.

Baş konsul Nuru Quliyev tədbirdə çıxış edərək Xocalı soyqırımının törədilmə səbəblərindən danışmış, "Xocalıya ədalət" kampaniyası çərçivəsində görülən işləri diqqətə çatdırmışdır.

Tədbirdə İqdır Vilayətinin valisi Ənvər Ünlü, İqdırda fəaliyyət göstərən Azərbaycan Evi Dərnəyinin sədri Sərdar Ünsal, İqdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri Ziya Zakir Acar, Türkiyə Respublikası Qazi Universitetinin müəllimi Cəmaləddin Daşburan və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, tarixçi-alim Həvva Məmmədova çıxış etmişlər.

Türkiyənin təhsil müəssisələrində də Xocalı soyqırımının ildönümü qeyd olunmuşdur. Belə ki, fevralın 21-də Qars şəhərindəki Anadolu Liseyində, fevralın 23-də Aralıq Dilucu Peşə və Texniki Anadolu Liseyində, İqdır Universitetində və fevralın 25-də Ərzurum Atatürk Universitetində Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilmişdir.

**"Şərq qapısı"**

## Təbrizdə Xocalı soyqırımının 26-cı ildönümü qeyd olunmuşdur



***Fevralın 24-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda Xocalı soyqırımının 26-cı ildönümü münasibətilə anım tədbiri keçirilmişdir.***

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək erməni təcavüzkarları tərəfindən 1992-ci il fevralın 26-da Xocalı şəhərində azərbaycanlılara qarşı soyqırımı törədildiyini bildirmiş, qədim tarixə malik olan Xocalıdakı tarixi abidələrimizin məhv edildiyini diqqətə çatdırmışdır. Soyqırımına ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyini və Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırıldığını bildirən Baş konsul bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Xocalı soyqırımının tanıdılması istiqamətində görülən işlərdən danışmış, Azərbaycan dövlətinin məqsədyönlü xarici siyasəti nəticəsində dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımının tanındığını bildirmişdir.

Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu Çağlar Fahri Çakıralp tədbirdə çıxış edərək ermənilər tərəfindən Xocalı soyqırımının törədilməsini və Azərbaycan torpaqlarının işğal altında saxlanılmasını qınadıqlarını bildirmiş, Azərbaycanla hər zaman həmrəy olduqlarını ifadə etmişdir.

Çıxışlardan sonra Xocalı soyqırımının dəhşətlərini əks etdirən film nümayiş etdirilmiş, mərasim iştirakçılarına faciədən bəhs edən videomateriallar, kitab, jurnal və bukletlər paylanılmış, soyqırımına həsr olunmuş fotostendə baxış olmuşdur.

Mərasimdə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin İctimai Məsələlər və Mədəniyyət İdarəsinin baş direktoru, İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

# Xocalı soyqırımı qurbanlarının xatirəsi muxtar respublikamızın bütün rayonlarında anılıb

## *Şərur rayonu*





Şərur rayonunda Xocalı soyqırımına həsr olunmuş anım tədbiri keçirilib. Şərur rayon ictimaiyyətinin nümayəndələri həmin gün Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad ediblər. Xocalıda həyata keçirilmiş soyqırımı, həmçinin ermənilər tərəfindən xalqımıza qarşı 200 ildən artıq bir müddətdə dəfələrlə törədilmiş qırğınlarla iyirmi altı il bundan əvvəl bəşəriyyət daha bir erməni vandallığının şahidi oldu. İyirmi altı ildir ki, dünyanın hər tərəfində sülhsevər insanlar bu faciənin soyqırımı kimi tanınmasını tələb edir, erməni vəhşiliyinin növbəti və dəhşətli nəticələrinin soyqırımı aktı kimi qəbul edilməsini istəyir.

Azğınlaşmış erməni silahlı birləşmələrinin, eləcə də onlara açıq-aşkar havadarlıq edənlərin bu soyqırımını törətməkdə məqsədi Azərbaycan xalqının mübarizə əzmini qırmaq və onu bütünlüklə məhv etmək idi. Lakin düşmənin niyyətləri baş tutmadı, dövlətimiz və dövlətçiliyimiz möhkəmləndi, iqtisadiyyatımız dirçəldi, qüdrətli və sarsılmaz milli ordu yaradıldı. Bu gün xalqımız tam əmindir ki, ölkə Prezidentinin apardığı qətiyyətli siyasət nəticəsində işğal olunmuş torpaqlarımız tezliklə azad ediləcək, məkrli düşmən öz layiqli cəzasını alacaqdır.

## *Babək rayonu*

***Fevralın 26-da Babək rayonunda da Xocalı soyqırımı qurbanlarının xatirəsi dərin ehtiramla yad edilib.***




Erməni qəsbkarları XX yüzilliyin əvvəllərindən başlayaraq xalqımızın başına amansız terror hadisələri gətiriblər. 1988-ci ildən etibarən isə yeni terror aktları həyata keçirilib. Bu soyqırımı siyasətinin davamı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə qədim oğuz-türk yurdu olan Xocalı şəhərində törədildi. Bununla da ermənilər vəhşi olduqlarını bir daha nümayiş etdirdilər. Nəticədə, on minlərlə insan həlak oldu, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Erməni hərbi birləşmələri qadınlara, uşaqlara, qocalara aman vermədən minlərlə insanı xüsusi vəhşiliklə qətlə yetirdi, onları hərb tarixində bənzəri olmayan işgəncə verməklə öldürdü, təhqirlərə məruz qoydu. Amansızlığına, vəhşiliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı soyqırımı insanlığın tarixində qara ləkə kimi qalacaqdır.

Xalqımız əmindir ki, yaxın zamanda erməni vandalizmi tam olaraq ifşa olunacaq, beynəlxalq aləmdə Xocalı soyqırımını tanıyanların sayı ildən-ilə artacaq və bu dəhşətli faciəni bütün dünya tanıyacaq. Aparılan uğurlu xarici siyasət nəticəsində bu gün dünya dövlətləri ermənilərin törətdikləri bu soyqırıma öz münasibətlərini bildirir və Xocalıda törədilmiş qətliamı kəskin pisləyirlər.

Bu gün Azərbaycan dövlətinin hərbi sahəyə ayırdığı xərclər Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Ermənistan nə hərbi, nə də digər sahələrdə Azərbaycanla müqayisə edilə bilməz. Ölkəmizin ərazi bütövlüyünü təmin etmək, Ermənistanın işğalçılıq siyasətinə birdəfəlik son qoymaq üçün dövlətimizin bütün imkanları vardır.

## *Ordubad rayonu*






Xocalı soyqırımının törədilməsindən 26 il ötür. Bu tarix xalqımızın qan yaddaşı, mübarizlik, qəhrəmanlıq, rəşadət tarixi, doğma torpaqlarımız uğrunda şəhidliyə ucalmaq məqamıdır.

Xocalı soyqırımı öz miqyasına görə XX əsrin Xatın və Sonqmi faciələri ilə bir sırada dayanır. Bu təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlıq və bəşəriyyət əleyhinə yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı o yaşayış məskəni idi ki, Azərbaycan tarixinin qədim dövrlərdən indiyə qədərki mərhələsini özündə əks etdirirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərindəki 366-cı motoatıcı alayı 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın edib günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirdilər.

Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verildi. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü.

Xocalı soyqırımı günü ilə əlaqədar 2018-ci il fevralın 26-da Ordubad rayonunda da faciə qurbanlarının xatirəsi dərin hüzn və ehtiramla yad edilib.

## *Culfa rayonu*

***Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Culfa rayonunda keçirilən anım tədbirində rayon İcra Hakimiyyətinin, təhsil, mədəniyyət, səhiyyə müəssisələrinin, digər qurumların kollektivləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.***



Xocalı soyqırımına ilk dəfə hüquqi-siyasi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib, bu faciə haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün tədbirlər görülüb.

Torpaqlarımızda məskunlaşan, zaman-zaman ölkəmizə qarşı torpaq iddiaları ilə çıxış edən, soyqırımları törədən erməni daşnaklarının tarix qarşısında cavab verəcəkləri gün uzaqda deyil. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət, Azərbaycan dövlətinin gündən-günə artan beynəlxalq nüfuzu, işğal altında olan torpaqlarımızı azad etməyə qadir olan hərbi gücü və iqtisadi qüdrəti bunu deməyə əsas verir.

## *Kəngərli rayonu*



Xocalı soyqırımının 26-cı ildönümü Kəngərli rayonunda da qeyd edilib. Rayon sakinləri Tarix-Diyarşünaslıq Muzeyində təşkil olunmuş anım mərasimində Xocalı faciəsi qurbanlarının xatirəsini əks etdirən panonun önünə tər qərənfillər düzüblər. Mərasim iştirakçıları soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edib, şəhidlərin ruhuna Allahdan rəhmət diləyiblər.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalıda misligörünməmiş soyqırımı törədiblər. Bu faciə zamanı hər tərəfdən mühasirəyə alınmış şəhər tamamilə dağıdılaraq yandırılıb, yüzlərlə insan qətlə yetirilib, əsir götürülüb. Xilas olmağa çalışan dinc sakinlər yollarda, meşələrdə pusqu qurularaq xüsusi amansızlıqla öldürülüblər. Həmin dövrdə Xocalı soyqırımının şahidi olmuş müxtəlif xarici ölkələrin jurnalistləri onu bəşəriyyətin böyük faciəsi adlandırıblar. Bu faciə, eyni zamanda ermənilər tərəfindən müxtəlif dövrlərdə xalqımıza qarşı törədilmiş soyqırımı aktlarının davamı, insanlığa yönəlmiş ən böyük hərbi cinayətdir.

Bu gün müstəqil Azərbaycan dövlətinin gündən-günə inkişaf edib möhkəmlənməsi və hərbi qüdrətini artırması Xocalı soyqırımı kimi faciələrin bir daha baş verməməsi üçün ən etibarlı təminatdır. Ölkəmizin yüksək iqtisadi inkişafı və hərbi qüdrəti yaxın gələcəkdə ərazi bütövlüyümüzün təmin olunmasına öz töhfəsini verəcək.

*Ardı 3-cü səhifədə*

## Şahbuz rayonu



***Dünən Şahbuz rayonunda da xalqımızın qan yaddaşına yazılmış Xocalı soyqırımı qurbanlarının anım mərasimi olub. Faciənin 26-cı ildönümü ilə əlaqədar keçirilən tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar, idarə və müəssisələrin kollektivləri iştirak ediblər. Tədbirdə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

XX əsrdə mənfur ermənilər öz bədxah niyyətlərinə çatmaq üçün dəfələrlə Azərbaycan torpaqlarında böyük qırğınlar törədib, öz işğalçılıq planlarını həyata keçirməyə çalışıblar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə azğınlaşmış erməni quldur dəstələrinin və onların havadarlarının Xocalıda törətdiyi soyqırımı isə tarixdə bənzəri olmayan bir vəhşilikdir. Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan edən erməni terrorçuları bir gecədə yüzlərlə dinc sakini qətlə yetirib, evlərinə od vurub yandırıblar. Təpədən-dırnağa kimi silahlanmış erməni quldur dəstələrinin qarşısına əliyalın çıxaraq son damla qanlarına kimi mübarizə aparan qəhrəman Xocalı şəhidlərinin xatirəsini xalqımız həmişə uca tutur. Xocalı faciəsi əbədi olaraq yaddaşlarda yaşayacaq. Yeniyetmə və gənclərə bu faciənin mahiyyətini davamlı olaraq anlatmaq və aşılamaq hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Bu gün Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli uğrunda Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət bütün Azərbaycan xalqının iradəsini əks etdirir.

## Sədərək rayonu






Ötən əsrin sonlarında Dağlıq Qarabağda baş verən hadisələr zamanı Sədərək rayonu da hücumlara məruz qalıb. Mənfur erməni yaraqlıları 1990-1993-cü illərdə Sədərəyə, ümumilikdə, 14 dəfə hücum ediblər. Həmin ağır günlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalıb. Sədərək bu bölgədə doğulub boya-başa çatan və şəhidlik zirvəsinə ucalan 52 vətənpərvərin yurd yeridir. Ərazi bütövlüyümüz uğrunda şəhid olan insanların xatirəsi Azərbaycanın alınmaz qalası olan Sədərəkdə daim uca tutulur. Şəhidlik zirvəsinə ucalan qəhrəman Xocalı sakinlərinin vəhşicəsinə qətlə yetirildikləri gündən artıq 26 il ötür. Bununla əlaqədar sərhəd bölgəsi olan Sədərək rayonunda anım tədbiri keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Xocalı haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün ölkəmizdə və beynəlxalq aləmdə zəruri tədbirlər görülüb. Bu sahədə məqsədyönlü fəaliyyət xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlanıb. Məhz dahi şəxsiyyətin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan edilib.

## Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib



***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci il fevral ayının 25-də imzaladığı Sərəncamla hər il fevralın 26-sı saat 17$^{00}$-da Azərbaycan Respublikasının bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir.***

Dünən Naxçıvan Muxtar Respublikasında da Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillərdən səs siqnalları verilib.

Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilib.

**Xəbərlər şöbəsi**

## Xatirə Muzeyi ilə məktəblər arasında interaktiv əlaqə yaradılıb



***Fevralın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Xocalı soyqırımı ilə əlaqədar Tədbirlər Planına uyğun olaraq Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın orta ümumtəhsil müəssisələri ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyi arasında interaktiv əlaqə yaradılıb.***

"Xocalı faciəsini unutmamalıyıq" mövzusunda keçilən dərsdə muzeyin bələdçisi Leyla Məmmədova əvvəlcə bu mədəniyyət müəssisəsi haqqında məlumat verib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1997-ci ildə imzaladığı Sərəncamla yaradılan mədəniyyət müəssisəsində hazırda 2000-dən çox eksponat var. Onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Eksponatların hər biri tariximizin qanlı və şanlı səhifələrini özündə əks etdirir. Burada, əsasən, şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Azərbaycan Respublikasının Milli qəhrəmanlarının, Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri və onlara aid materiallar qorunur. Muzeydə eksponatların xronoloji ardıcıllıqla yerləşdirilməsi gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına şərait yaradır.



*Naxçıvan şəhər 12 nömrəli tam orta məktəb*



*Ordubad şəhər 3 nömrəli tam orta məktəb*

İnteraktiv dərsdə Xocalıda törədilən soyqırımı barədə şagirdlərə ətraflı məlumat verilib, bu faciəyə ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyi vurğulanıb, Azərbaycan Prezidentinin Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlərdən bəhs olunub.

İnteraktiv dərsi Heydər Əliyev adına Hərbi Lisey və muxtar respublikanın 222 təhsil müəssisəsindən izləyiblər.

Qeyd edək ki, həmin gün muxtar respublikamızın ali, orta ixtisas və ümumtəhsil məktəblərində, Heydər Əliyev adına Hərbi Liseydə ilk dərs saatı Xocalı soyqırımına həsr olunub.

**Səbuhi HƏSƏNOV**

## Xocalı soyqırımının 26-cı ildönümü münasibətilə
## Haçadağa yürüş təşkil olunub




*Xocalı faciəsinin qurbanlarının anım günü münasibətilə Haçadağa yürüş təşkil edilib. Yürüşə muxtar respublikanın Hava və Ekstremal İdman Növləri Federasiyasının "İlandağ" İdman Klubunun 11 üzvü və Türkiyənin müxtəlif bölgələrindən gələn 26 idmançı qatılıb. İştirakçılar Culfa rayonunun Gal kəndi ərazisindən yürüşə başlayıblar. Haçadağın zirvəsinə çatan yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edib, posterlər açıblar. Yürüş iştirakçıları ilə görüşüb onların təəssüratlarını öyrəndik.*





***Yakub KARATAŞ (Antalya, müəllim):*** – Bu mənim Naxçıvana ilk gəlişimdir. Eşitdim ki, Xocalı soyqırımına görə Haçadağa yürüş olacaq. Çətin olsa da, zirvəyə kimi qalxdım. Ötən il də belə bir yürüş olub, lakin bilməmişəm. Bu xəbəri eşidən kimi qrup rəhbəri ilə danışıb dörd gün ərzində hazırlaşdım və gəldim. Bu cür yürüşlərin keçirilməsi yaxşı haldır.

Ötən ildən fərqli olaraq bu il yürüşdə daha çox insanın iştirak etdiyini dedilər. Bu, gözəl haldır. Növbəti il də keçirilərsə, düşünürəm ki, daha çox insan yürüşdə iştirak edəcəkdir.

Alpinistlik hobbimdir. Hazırda Antalya vilayətində müəllim işləyirəm və həftəsonları bölgəmizdə olan dağlara yürüş edirəm. Naxçıvana gəldiyimə, bu gözəl diyarı gördüyümə görə sevincliyəm. Buranın insanları qonaqpərvərdirlər, bizi mehribanlıqla qarşıladılar. Naxçıvan şəhərində gəzintilərimiz oldu, xüsusilə muzeylərin tarixi eksponatlar baxımından zənginliyi bizi valeh etdi. Hər il keçiriləcək bu yürüşdə iştirak etməyi qarşıma məqsəd qoymuşam.



***Merve Tekin YILDIZ (İstanbul, kompüter operatoru):*** – İlk olaraq Naxçıvanın gözəlliyi, təmizliyi, sakitliyi barədə danışmaq istəyirəm. Etiraf edim ki, buranı belə təsəvvür etmirdim: İstanbul kimi səsli-küylü, avtomobillərin nizamsız hərəkəti və sıxlıq. Gəlib gördükdə isə yanıldığımı anladım. Naxçıvanın təmizliyi, insanların mehriban münasibəti, şəhərdə avtomobillərin hərəkəti, oteldə və şəhərdə insanların bizə qarşı davranışı – hər şey fərqlidir, çox gözəldir.

Haçadağa yürüşə gəlincə, deyərdim ki, ən çətin dırmanışlardan biri oldu. Qrup rəhbərinin tapşırığı ilə zirvəyə çətin yolla getdik. Açığı iki-üç dəfə çətinliklə üzləşdim. Xüsusilə zirvəyə yaxın yerlərdə yol üzərində sürüşkən qayaların olması işimizi çətinləşdirdi. Buna baxmayaraq, zirvəni fəth etdik və bu mənim həyatımda ən gözəl yürüşlərdən biri oldu.



***Celal KARAALİ (İstanbul, "Yaşam" qəzetinin təsisçisi):*** – Xocalı soyqırımı, erməni vəhşiliklərini dünyaya tanıtmaq üçün Haçadağa təşkil edilən yürüş ən gözəl addımlardan biridir. Çalışdığım qəzetdə də mütəmadi olaraq bu barədə yazılar dərc edilir. Əlimizdən gəldiyi qədər insanlığa qarşı törədilən bu vəhşiliyi yaymağa, dünya ictimaiyyətinə çatdırmağa çalışırıq.

Zirvəyə yürüş olduqca çətin keçdi. Bundan sonra nə vaxt yürüş təşkil edilsə, Naxçıvana gələcəyəm. Çünki bu diyar mənə çox doğma təsir bağışladı. Üç gün ərzində Naxçıvanda bizə göstərilən münasibət bütün yorğunluğumuzu çıxardı. Şəhərin təmiz, sakit olması isə ayrıca bir gözəllikdir.



***Volkan MİKYAS (İğdır, idmançı):*** – Haçadağın zirvəsinə qalxmaq ən çətin yürüşlərimdən biri oldu. Çünki dağ haqqında maraqlanmışdıq və zirvəyə yaxın yerdə sıldırım qayaların olduğunu bilirdik. Buna görə çətinliklərlə üzləşdik. Belə yürüşlərdə dostlarını, komanda yoldaşlarını da düşünməlisən. Şükürlər olsun ki, çətinlikləri dəf etdik və zirvəyə çatdıq. Gördüyünüz bu daşı oradan (dağı göstərir) gətirmişəm. Bu, kolleksiyamın ən gözəl daşlarından biri olacaq. Çünki çətinliklə əldə olunan hər şey gözəldir.

Mən Naxçıvan Muxtar Respublikası ilə sərhəddə olan İğdır vilayətində yaşayıram. Naxçıvan barədə çox eşitmişəm və buranın gözəlliyinə, təmizliyinə, sakitliyinə bələdəm. İlk dəfə bu şəhərə gələn dostlarımız da bu qənaətimə şərik olduqlarını dedilər. Növbəti ildə də Haçadağa gəlib Xocalı soyqırımı günündə zirvəni fəth etmək niyyətindəyik.

**Ceyhun MƏMMƏDOV**

Xalq təqvimi

# Bir daha çərşənbələr haqqında

***Qədim əcdadlarımızın, ata-babalarımızın bizə əmanət olaraq qoyduqları milli-mənəvi dəyərlərimizdən biri də Novruz bayramıdır. Hələ Novruz bayramından əvvəl qışın ilk vaxtlarından başlayaraq qırx gün müddətində böyük çillə, ondan sonrakı 20 gündə isə kiçik çillə davam edir.***

Xalq təqviminə görə, kiçik çillə fevral ayının 19-u öz ömrünü başa vurub, yerini boz aya verir. Boz ay xalq arasında həm də "alaçalpov", "çillə beçə", "ağlar-gülər" və sair adlarla bilinməkdədir. Boz ay kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə – martın 21-nə qədər olan dövrü əhatə edir. Ayın adının bu cür adlanması onun buludlu, yağışlı, küləkli, bəzən günəşli, bir sözlə, dəyişkən olması ilə bağlıdır. Xalq arasında boz ay haqqında bir deyim var: "Boz ay bozara-bozara keçər". Bu daha çox boz ayın sərtliyi və havaların bozarmasına işarədir. Kiçik çillə ilə Novruz arasındakı boz ay qışdan yaza keçid dövrünü əks etdirir. Xalq arasında boz aya bayram ayı da deyilməkdədir. Müxtəlif adlarla bilinən boz ayın dörd çərşənbəsi çillə çıxarmanı əhatə edir. Azərbaycanın ən qədim yaşayış məskəni olan Naxçıvanda çərşənbələr bu ardıcıllıqla adlandırılmışdır: ***SU-TORPAQ-YEL-OD.***

Folklor yaddaşımızda insanın yaradılışının dörd mərhələdə həyata keçirilməsi düşüncəsinə rast gəlirik. Yaradan əvvəlcə suyu götürdü, onu torpaqla qarışdırıb bir insan modeli hazırladı, sonra ona ruh (nəfəs, hava) verdi, ən sonda isə onu istiliklə təmin etdi (Günəş sistemində müəyyən bir məkanda məskunlaşdırdı). Beləliklə də, İlahi tərəfindən həyata keçirilən yaradılış ardıcıllığı çərşənbələrdə qeyd olunaraq Yaradana minnətdarlıq hissi kimi ortaya çıxmışdır.

Ən qədim türk dastanı olan "Yaradılış" dastanında da bu ardıcıllıqla qarşılaşırıq. Bildiyimiz kimi, "Yaradılış" dünyanın yaranmasından bəhs edən ilk dastan nümunəsidir. Bu dastanın bir çox variantı mövcuddur. Həmin variantların birində deyilir ki, başlanğıcda hər yer sularla örtülü idi. Tanrı Ülgən quşa dönərək suların üstü ilə uçurdu. Qonmağa bir yer tapmır və bu zaman göydən gələn səs ona Suyun içindən çıxan bir daşa (TORPAQ) qonmasını söyləyər. Ülgən bu daşa qonandan sonra yerin və göyün yaradılmasını düşünür. Bunu necə edəcəyini bilmir. Bu vaxt suların içindən dişi ruh (Ruh-Nəfəs-Yel) Ağ Ana Ülgənə yaradılışı necə həyata keçirməyi izah edər. O da özünə bənzəyən bir Ərlik – ODU yaradır.

Qədim Şumer əfsanələrinə görə, öncə tanrılar mövcud idi, bütün dünya isə dərin sularla örtülmüşdü. Tanrıça Namu dərin sulardan palçıq götürüb ona özlərinə oxşar şəkildə forma verir, sonra nəfəs püləyir. Burada su çəkiləndən sonra torpaq götürüldüyünə rast gəlirik. Deməli, ardıcıllıqla sudan sonra torpaq gəlir. Sonra nəfəs (yəni yel) püləyir. Sonra isə od istilik verir.

Çərşənbələr öz müqəddəslik mahiyyətində də təbiətin canlanması ardıcıllığını hifz edir. Belə ki, öz sərt soyuğu ilə "asıb-kəsən" kiçik çillə başa çatandan sonra təbiətdə mülayimləşmə baş verir. Bu zaman ilk olaraq Su qızmağa, əriməyə başlayır. Bundan sonra Torpaq isinir. Torpağın isinməsindən sonra soyuq və isti havanın qarşılıqlı mübadiləsi prosesi baş verir. Təbiətdə coğrafi hadisələrdən də bizə bəlli olan Soyuq və İsti hava axınının yerdəyişməsindən Külək – Yel əmələ gəlir. Yəni yeni, isti hava axını – Külək havanı qızdırır. Ən sonda isə qeyd olunan əvvəlki ünsürlərin qızmasından sonra Günəşin – böyük Od kürəciyinin hərarəti tamamilə hiss edilir. İnsanlar və təbiət, canlı və cansız bütün varlıqlar Odu – istini duyurlar. Beləliklə, ulu əcdadlarımızın inam sistemi formalaşmış, Suya, Torpağa, Yelə, Oda inam meydana gəlmiş, bu ünsürlərin hər birinə aid müxtəlif ayinlər, mərasimlər təşkil olunmuş, beləliklə də, bu gün qeyd etdiyimiz dörd çərşənbə yaranmışdır.



Bəs, görəsən, Çərşənbə ənənələri nədən ibarətdir?

***Boz ayın ilk çərşənbəsi xalq arasında "Əzəl çərşənbə" kimi tanınan Su çərşənbəsidir.*** Azərbaycan xalqının inancına görə, yazın nəfəsi öncə suya toxunur. Xalq arasında deyilir ki, bu gündən sulara ixtiyar verilir. Buna görə də bu çərşənbə suyun təzələnməsi ilə əlaqədardır. İnama görə, həmin çərşənbədə su oyanır, saflaşır, təzələnir. Elə ki isti, hərarət suya düşdü, suların donu açılır. Topladığımız etnoqrafik çöl materiallarından görünür ki, Su çərşənbəsində su üstə gedərlər, ancaq su gətirməzlər. Su üstə gedib oradan su götürmək adətinə ilin axır çərşənbəsinin səhəri əməl edərlər. Xalq arasında olan inama görə, həmin gün suda nə istəsən, həyata keçər. Bununla əlaqəli bir deyim də mövcuddur:

*Su üstə, Novruz üstə,*
*Bəxtini sudan istə.*

El-obada Su çərşənbəsi ərəfəsində su arxları təmizlənər, bulaqların, çeşmələrin gözü açılar, novdanlar, hovuzlar təmizlənər, bərpa işləri aparılardı.

***Boz ayın ikinci çərşənbəsi Torpaq çərşənbəsidir.*** Bu çərşənbədə havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açması baş verir ki, bu Novruzun xəbəri kimi başa düşülür. Torpaq oyanır və artıq əkinə hazır olduğunu göstərir. El arasında deyərlər ki, "Cəmrə, yəni istilik torpağa düşür". Torpaqdan buxar qalxır, deməli, torpaq qızmışdır, yaz əkininə başlamaq olar. Xüsusən yazlıq arpa yavaş-yavaş əkilməlidir. Xalq arasında olan inama görə, bolluq, bərəkət rəmzi olaraq Torpaq çərşənbəsində torpağa buğdadan toxum qoyulmalıdır. Evlərdə səməni elə bu çərşənbədən qoyulmalıdır ki, axır çərşənbəyə hazır olsun.

Ədəbiyyat materiallarında qeyd edilir ki, erkən orta əsrlərdə Azərbaycanda əkinçiliklə əlaqəli "İsfəndəkan" adlı bayram keçirirdilər. Sonralar bu bayram Torpaq çərşənbəsi adlandırıldı. Bu çərşənbədən etibarən artıq çay, bulaq kənarlarında yarpız görünməyə başlayır. Həyət-bacada əsaslı işlərə başlanılır. Bağ-bağata əl gəzdirilir, səliqə-sahman yaradılır. Ağacların qol-budağı budanır, artıq nə varsa, yandırılır, ağacların dibi bellənir.

Torpaq insanların yaşayışı üçün zəruri olan qida ilə təmin edən real həyati varlıqdır. Torpaq deyər: "Öldür məni, dirildim səni". Butipli saysız-hesabsız folklor örnəklərimizin də məğzində torpağın bir yaradıcı ünsür kimi insanın yaşayışı və fəaliyyəti üçün əsas stimulverici güc olduğu dayanır.

***Xalq təqviminə uyğun olaraq boz ayın üçüncü çərşənbəsi Yel çərşənbəsidir.*** Yel çərşənbəsində küləklər əsməyə başlayır və gün ərzində bir neçə dəfə dəyişir. Bu dəyişikliklər havanın təmizlənməsi kimi qəbul edilir. Bu dövrdə əsən küləyə "vədə yeli" deyilir.

Bəzi tədqiqatçılar yazır ki, bu külək ilin müəyyən dövründə müntəzəm əsdiyindən vədə (yəni gözlənilən vaxtda əsən) küləyin adını almışdır. Xalq arasında vədə yelinə həm də "ələyəz yeli" (ələyəz ot adıdır) deyilir. Bir deyimə görə, "ələyəz yeli" qalxdısa, yaz gələr. Ələyəz yelinin hansı istiqamətə əsdiyi bilinməz. Buna uyğun olaraq Naxçıvanda sözü, fikri, əqidəsi bilinməyən adama "Ələyəz yelidir, hərdən bir tərəfə əsir", – deyirlər.

Digər bir deyimə görə, "vədə yeli" yazın yelidir. Elə ki əsməyə başladı, ağacların oyanmasına, köçəri quşların gəlməsinə köməklik göstərər. Köçəri quşlar (leylək, durna, qaranquş) yazın ilk müjdəçiləri hesab edilir. Bu quşların gəlməsi ilə əsl yaz başlayar.

***Boz ayın dördüncü, sonuncu çərşənbəsi xalq arasında "ilin axır çərşənbəsi" kimi bilinən Od çərşənbəsidir.*** Od çərşənbəsi əski görüşlərlə bağlı olub, Günəşə, oda, odu qoruyub saxlamaq inamına tapınma, od kultu ilə əlaqəli yaranmışdır. Hələ çox-çox əvvəllər insanlar təbiəti canlandıran, torpağı isidən Günəşin yerdəki rəmzi kimi odu müqəddəsləşdirmişlər. Əski zamanlarda insanlarda belə bir inam yaranmışdır ki, onlar odu nə qədər əzizləsələr, oxşasalar, təbiət o qədər tez qızınar, isinər, adamlara xoşbəxtlik gətirər. Herodot yazırdı ki, qədim türk tayfalarından olan massagetlər Günəşi yeganə Allah hesab etməklə ona qurban kəsərdilər.

Topladığımız etnoqrafik materiallara görə, Od çərşənbəsində yandırılan odun külünü üç yerə səpib mal-qaranı, qoyun-quzunu külün üzərindən keçirərdilər. İnanca görə, Od çərşənbəsində yanan odun külünü kom qoymazdılar. Bu hal evə uğur gətirməzdi. Babək rayonunun Payız kəndində yaşlıların verdikləri məlumata görə, həmin külü axar suya axıdardılar.

Od çərşənbəsində tonqallar çatılır, atəşfəşanlıq edilir. Tonqalın ətrafına toplaşan insanlar odun üzərindən atlanmaqla köhnə ildən qalan əzablarını, ağırlıqlarını sanki arxada qoyur və yeni ildə xoşbəxt, firavan həyat yaşayacaqlarına inanırlar. Yandırılmış odun üstündən "ağırlığım, uğurluğum, dərdim, bəlam bu oda tökülsün", – deyib tullanarlar. İnama görə, odun üstündən tullanan şəxs ilboyu xəstələnməz, dərd-qəm ondan uzaq durar. Xəstə heyvanları, yeni doğulmuş quzuları odun üstündən keçirmək kimi adətlər də mövcud olmuşdur. Yandırılmış odun külünü götürüb bolluq, bərəkət rəmzi olaraq əkin sahələrinə, toyuq-cücələrin üstünə, mal-heyvanın altına səpərlər. Şər qüvvələrdən qorunmaq, onları qovmaq üçün ilaxır tonqalının külündən evin dörd küncünə qoyarlar.

Naxçıvanda "İlaxır çərşənbə" özündən əvvəlki üç çərşənbədən yüksəkdə duran, ən təmtəraqlı qeyd edilən mərasimlərdən biridir. Topladığımız etnoqrafik materiallara görə, axır çərşənbəyə hazırlıq kiçik çillədən sonra başlanır. İlk növbədə, həyət-baca təmizlənir, evlər səliqə-sahmana salınır. El arasında buna "külə-külə" də deyərlər. Həmin gün yaxın qohumlar yaslı olan qohumların evlərinə gedib, ağbirçəklərdən icazə alıb onların evlərini təmizləyər, əyinlərindəki yas paltarlarını çıxarıb bayram libası geyindirərlər. Bu cür evlərdə bütün əşyaların yeri dəyişdirilməlidir ki, evdə "kəsavət" qalmasın. Bayram ayında bir sıra işlərlə yanaşı, yaz-tarla işlərinə də hazırlıq görülür.

Axır çərşənbə günündə mərhumları yad etmək üçün qəbiristanlığa getmək adəti də vardır. Xalq arasında bu adət "Ata-baba günü", "Arafa" (köhnə illə təzə ilin arası) adlanır. Bu adətə görə, hər kəs öz ölmüş əcdadlarının ruhlarını yad edər. Çərşənbə axşamı qohumlar, qonşular yaslı evlərə gedib onlar üçün də "çərşənbə odu"nu yandırar, beləcə, onları yasdan çıxarar. Çünki yeni ilə yaslı girmək uğurlu sayılmaz.

Axır çərşənbədə hər kəsin evində plov süzülür, ləziz yeməklər hazırlanır, xonça bəzədilir. Kəngərli rayonunun Qarabağlar, Qıvraq və Yurdçu kəndlərində Novruz aşının düyüsündən götürüb ağacların koğuşuna qoyardılar ki, barlı olsun. Şadlıq, yasdan çıxma rəmzi olaraq bar verməyən ağacların dibinə həmin günü xına basdırmaq, qırmızı parça bağlamaq adəti də mövcuddur.

Axır çərşənbədə od yandırıldıqdan sonra hər kəs süfrə başında əyləşir. Xalq arasında olan inama görə, həmin gün evində olmayan yeddi il evində olmaz. Axşam düşdükdə oğlan uşaqları evlərə papaq, torba atar, qızlar isə "qulaq falı"na çıxar, niyyət edib qapı pusarlar. Ev yiyələri də çalışarlar ki, həmin günü xoş sözlər danışsınlar.

Xalq arasında keçirilən ən maraqlı adətlərdən biri də "axır çərşənbə"nin səhəri günü Günəş çıxmamışdan "su üstə" getmək adətidir. Bəzi yerlərdə bu adət "novbaşı" adlanır. İlk növbədə, insanlar səhər tezdən bulaq kənarına, nov başına gedər, suyun üstündən tullanarlar. Su üstündən tullananda "Allahım, ruzimizi bol eylə", – deyib, suya buğda atarlar. Şahbuz rayonunun bəzi kəndlərində isə "İlahi, qohumların, ailəmizin ağzını şirin eylə", – deyib, suya kişmiş atarlar. Əl-üzlərini yuyar, sudan bir az da içərlər. İnama görə, bu su dərdlərin dərmanıdır, içən xəstələr şəfa tapar. "Çərşənbə suyun"dan insanlar arasında bir-birinin üstünə çiləmə adəti də icra olunur.

Bulaq üstünə gedən qız-gəlinlər bulağın gözündən əl atıb yeddi daş götürərlər. Şərur rayonunda isə "övlad, dövlət, bərəkət", – deyib, əyilib sudan üç daş götürərlər. Götürülən daşları yağ küpələrinə, unluqlara, pul kisələrinə qoyardılar ki, bərəkətli olsun. Başqa bir adətə görə isə çör-çöp yığıb, bişirilən südün altında yandırardılar ki, ruzi-bərəkətli olsun.

Bu adətlərdə əcdadlarımızın Su, Torpaq, Külək, Od kultuna tapınmasının izləri açıq-aydın görünür. Çərşənbələrdə əzizlənən bu müqəddəs ünsürlərə Azərbaycan türkləri və bütün Türk dünyası qədimdən etiqad etmiş və inanmışlar.

***Xalqımıza üzümüzü tutub Suyunuz aydın, Torpağınız bərəkətli, Küləyiniz hərəkətli, Odunuz hərarətli olsun, deyirik.***

**Elxan MƏMMƏDOV**
**AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri**

**Asəf ORUCOV**
**AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri**

## Magistraturaya qəbul imtahanının I mərhələsi keçirilib

***Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi 25 fevral 2018-ci il tarixdə ali məktəblərin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanının birinci mərhələsini keçirib.***



İmtahanın birinci mərhələsi respublikanın 5 şəhərində – Bakı, Gəncə, Naxçıvan, Mingəçevir və Lənkəran şəhərlərində, ümumilikdə, 38 imtahan binasında aparılıb. İmtahan bütün binalarda eyni vaxtda – $13^{00}$-da başlayıb və 2 saat 30 dəqiqə davam edib.

Qəbul imtahanı Bakı şəhərində 32, Gəncə şəhərində 3, Naxçıvan, Mingəçevir və Lənkəran şəhərlərinin hər birində bir binada təşkil olunub. Bakıda 10 min 705, Gəncədə 838, Naxçıvanda 339, Mingəçevirdə 292, Lənkəranda 213 bakalavr imtahan verib. İmtahanın idarə olunmasına 123 imtahan rəhbəri, 1153 nəzarətçi-müəllim cəlb olunub.

Naxçıvan şəhərində imtahan 14 nömrəli tam orta məktəbdə keçirilib. İmtahanın keçirilməsi üçün 29 imtahan zalı hazırlanıb. İmtahana 38 nəzarətçi və 4 imtahan rəhbəri (2-si regional bölmənin bazasından, 2-si Bakıdan) cəlb olunub. İmtahanda 339 bakalavr iştirak edib.

Qaydalara görə, bakalavrlara 50-si məntiqi təfəkkür, 25-i xarici dil, 25-i isə informatika olmaqla, 100 sual təqdim olunub. Hər bir doğru cavab 1 balla qiymətləndirilib və səhv cavablar düzgün cavabların nəticəsinə (ümumi nəticəyə) təsir göstərməyib.

İmtahanın nəticələri *www.dim.gov.az* saytında yerləşdirilib.

**Fatma BABAYEVA**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 176